UOT 340.12
https://doi.org/10.59849/2710-0820.2026.1.281

**Habil Qurbanov**
*AMEA, Fəlsəfə və Sosiologiya İnstitutunun*
*"Fəlsəfi-hüquqi təlimlər və suverenlik" şöbəsinin müdiri.*
*hüquq elmləri doktoru, professor,*
*Azərbaycan Respublikası*
*professorqurbanov@yandex.com*

# QANUNVERİCİLİK VƏ SUVERENLİK ARASINDA DİALEKTİK MÜNASİBƏT

***Açar sözlər:*** *suverenlik, Azərbaycan Respublikası, bərpa, hüquq, ərazi, hakimiyyət, müstəqillik.*

## Giriş

Qanunvericilik anlayışı dövlətin hüquq siyasəti sahəsində qarşıya qoyduğu mühüm ümumdövlət əhəmiyyətli tədbirlərdən biri olmaqla, ölkənin hüquq sisteminin və qanunvericilik sisteminin inkişafına və təkmilləşdirilməsinə xidmət edir.

"Suverenlik" anlayışına iki mövqedən yanaşılmalıdır: xalqın suverenliyi və dövlət suverenliyi. Xalqın suverenliyi prinsipi Konstitusiyanın 2-ci maddəsində açıqlanır. Dövlət suverenliyi dövlət hakimiyyətinin vahidliyində və aliliyində, habelə onun orqanlarının hüquqi aktlarının bütün hüquqi və fiziki şəxslər üçün məcburi xarakter daşımasında ifadə olunur. Suverenlik, dövlətin daxili və xarici işlərində heç bir xarici qüvvənin müdaxiləsi olmadan müstəqil şəkildə qərarlar qəbul etməsi hüququdur".( Əhməd, 2025)

Qanunvericilik və suverenlik anlayışlarının hər biri dövlətin mövcudluğunu və legitimliyini müəyyən edən əsas kateqoriyalar sırasındadır. Suverenlik dövlət hakimiyyətinin ali və bölünməz xarakterini ifadə etdiyi halda, qanunvericilik bu hakimiyyətin normativ formalarda təzahürünü təmin edir. Bu iki anlayış arasında dialektik münasibət onların qarşılıqlı təsir və transformasiya proseslərini şərtləndirir.

## Qanunvericilik sisteminin mahiyyəti

Qanunvericilik sistemi hüquq sisteminin təzahürü və hüquq normalarının ifadə forması kimi qəbul edilmişdir. Bu mənada qanunvericilik sistemi hüququn formaları ilə eyniləşir. Hüquq sistemindən fərqli olaraq qanunvericilik sistemi dövlət hakimiyyəti orqanları tərəfindən qəbul edilən aktların məcmusudur. Bu aktların hüquq sistemində rəsmi fəaliyyəti qanunvericilik prosesində gerçəkləşir. Belə ki qanunvericilik prosesi dövlət hakimiyyətinin yüksək hüquqi qüvvəyə malik olan normativ aktların hazırlanması, onların nəzərdən keçirilməsi, təsdiq və elan edilməsi üzrə rəsmi fəaliyyətidir. Qanunvericilik prosesinin mahiyyətinin dərinliyinə varanda məlum olur ki qanunvericilik sivilizasiyalar tarixində bütün dövlətlərə aid olan və onların ən vacib funksiyalarından biri hesab edilir. Qanunvericiliyin reallaşdırılması üçün təyinati qanunvericilik aktlarının yaradılması prosesini rəsmiləşdirməkdən ibarət olan xüsusi orqan yaradılır. Bu fəaliyyətin subyektləri öz bilik və bacarığı ilə tam parlamenti təşkil edən xalq və ali dövlət hakimiyyəti orqanlarıdır. Qanunvericilik prosesi çərçivələrinin məhdudlaşdırılması cəmiyyətin demokratik əsaslarının boğulması haqqında istiqamət verir. Bu prosesin qarşısı heç bir ekstremal şəraitdə və hər hansı kənar qüvvə tərəfindən alına bilməz. Qanunvericilik prosesinə mane olanlar və ya bu prosesin qarşısını almağa cəhd göstərənlər dövlətin məcburiyyət tədbirlərinə məruz qalırlar. Qanunvericilik prosesinin gedişinə müdaxilə etmək qanunla təqib edilir. Qanunvericilik prosesi ilə onun sabitliyinin möhkəmləndirilməsi ənənəsi qarşılıqlı təsirdədir. Sabitliyi olmayan qanunvericilik ictimai münasibətləri tənzimetmənin daimi sistemi kimi mövcud ola bilməz. Qanunvericiliyin sabitliyi bütövlükdə hüquq sistemində və hüquqi sistemdə gərginliyin aradan qaldırılmasına, qanunvericiliyin öz daxilində təzahür edə bilən və

edən ziddiyyətlərin zəiflədilməsinə xidmət edir. Hər bir demokratik dövlətdə qanunvericiliyin sabitliyi dövlətlə onun orqanları və vətəndaşlar arasında qarşılıqlı münasibətlərin sabitliyi və möhkəmliliyi; - ən mühüm sosial proseslərin inkişaf xarakterinin perspektivliyi nəzərə alınmaqla, onların qanunvericilik yolu ilə vaxtında tənzimlənməsi; - ölkədə baş verən iqtisadi dəyişikliklərin məqsədlərinin obyektivliyi və əsaslılığından asılıdır. "Qanunvericilik müddəaları formalarının onlarda ehtiva olunmuş hüquqi mənaya, onların əlçatanlığına, razılaşdırılması və qeyri-ziddiyyətliliyinə uyğunluğunu təmin etməyə xidmət edən qanunvericilik aktlarının rəsmiləşdirilməsi qayda və üsullarının sistemləşdirilməsi vasitəsilə qanunvericilik prosesi hər bir demokratik dövlətdə reallaşdırılır" (Quliyev, 2017).

Qanunvericiliyin sistemləşdirilməsi dövlət orqanlarının və hüququn digər subyektlərinin normativ-hüquqi aktların qaydaya salınması və vahid qaydada razılaşdırılmış sistemə salınması üçün məqsədyönlü fəaliyyəti başa düşülür. Bu prosesin nəticəsində mahiyyət etibarilə hamı qanunvericiliyin real vəziyyəti bilməsinin zəruri olduğunu hesab edən qanunvericidən, fəaliyyəti birbaşa hansı qanunlara və digər aktlara müraciət etməkdən asılı olan hüququ tətbiq edəndən başlamış, hüquq mədəniyyətinin səviyyəsi qüvvədə olan qanunlara əsaslanan vətəndaşlara qədər maraqlıdır. Yəni qanun və digər normativ-hüquqi aktlar hamı – həm qanunverici, həm də vətəndaşlar tərəfindən eyni səviyyədə mənimsənilməli və dərk edilməldir. Qanunvericinin də, vətəndaşların da hüquq mədəniyyəti səviyyəsi bununla ölçülür.

Dialektik yanaşmaya görə, qanunvericilik və suverenlik bir-birini həm müəyyən edir, həm də məhdudlaşdırır. Bu qarşılıqlı təsir sosial münasibətlərin inkişafı ilə dəyişir.

Sosioloji baxımdan qanunvericilik və suverenlik sosial struktur və güc münasibətlərinin məhsuludur. Maks Veber hakimiyyətin legitimliyini ənənəvi, xarizmatik və hüquqi-ratsional formalara bölərək qanunvericiliyin müasir dövrdə əsas legitimlik vasitəsi olduğunu vurğulamışdır. Piyer Burdye hüquqi sahəni simvolik güc məkanı kimi təsvir edərək qanunvericiliyin sosial vərdişlə əlaqəsini göstərmişdir. Bu kontekstdə qanunvericilik yalnız hüquqi deyil, həm də sosial güc münasibətlərinin təzahürüdür. Dialektik münasibət burada ondan ibarətdir ki, suverenlik qanunvericiliyi formalaşdırır, qanunvericilik isə öz növbəsində suverenliyin sərhədlərini müəyyən edir. Qanunvericilik və suverenlik arasında dialektik münasibət dövlətin inkişaf dinamikasını müəyyən edən əsas amillərdəndir. Tarixi proseslər göstərir ki, bu anlayışlar statik deyil, daim dəyişən sosial və siyasi şəraitə uyğun olaraq transformasiya olunur. Müasir dövrdə suverenlik artıq mütləq deyil, nisbidir və qanunvericilik bu nisbiliyin normativ ifadəsinə çevrilmişdir.

Suverenlik dövlət hakimiyyətinin ali və müstəqil xarakterini ifadə etdiyi halda, qanunvericilik bu hakimiyyətin normativ ifadə formasıdır. Bu iki anlayış arasındakı əlaqə sadə subordinasiya münasibəti deyil, daha çox dialektik xarakter daşıyan qarşılıqlı təsir sistemidir. Qanunvericilik suverenliyin həyata keçirilmə aləti kimi çıxış etsə də, eyni zamanda onu məhdudlaşdırır. Konstitusion sistemlərdə qanunvericilik hakimiyyəti hüquqi çərçivələrlə sərhədləndirilir ki, bu da suverenliyin normativləşdirilməsi deməkdir.

**Suverenlik anlayışının tarixi determinizmi**

Tarixə ekskursiya etsək görərik ki, insanlar daim həyat fəaliyyətlərini davam etdirmək üçün dövlət hakimiyyətini, onun sahibini müəyyən etməyə çalışmışlar. Suverenliyin hakimiyyətin xarakterik xüsusiyyəti olması da bununla əlaqəlidir.

Suverenliyin hazırki statusuna baxıldıqda o, bir hüquqdur. "Suverenlik bir millətin və ya bir qrup insanın özünü idarə etmək hüququdur" (Arseni & Pozneacova, 2021). Termin olaraq izahını versək, suverenlik ölkənin daxilində və xaricində dövlətin daxili və xarici funksiyalarını azad və sərbəst şəkildə dövlətin konstitusiyası və qanunları, beynəlxalq hüququn hamılıqla tanınmış prinsipləri və normaları əsasında həyata keçirmək hüququndan ibarətdir.

Suverenlik anlayış olaraq yaransa da, eləcə də konseptual bazaya sahibdir. O Konsepsiya olaraq Cin Bodin tərəfindən işlənib hazırlanmışdır. Klassik suverenlik nəzəriyyəsi suverenliyin konseptual bazasını təşkil edir. Müasir dövrdə isə suverenlik anlayışı köklü dəyişmə prosesindədir. Bu transformasiyanın səbəbi XX

əsrə dayanır. Çünki keçən əsrdə dünyamız konseptual bazaya təsir edən dəyişikliklərlə üzləşmişdir.

Suverenlik anlayışı XVII əsrdə fransız filosofu Cin Bodin tərəfindən hüquqi dövrəyə buraxılmışdır. Cin Bodin suverenlik anlayışının müasir dövrlə əlaqələndirərək formalaşdıran ilk mütəfəkkirlərdən olmuşdur. O hesab edir ki, bölünməz və əvəzolunmaz olan suverenlik müstəqil və daimi hakimiyyətin özüdür. Onun fikrincə, suverenlik qanunvericilik səlahiyyətini özündə cəmləşdirir, təbii və ilahi qanunlar vasitəsilə məhdudlaşdırıla bilər. “Leviathan” əsərində suverenliyi mütləq və bölünməz bir güc kimi təsvir edən Tomas Hobbs “insan təbiətinin rəqabətli və konfliktli olduğunu iddia edərək, güclü bir suveren cəmiyyətin nizamını təmin etmək üçün zəruri olduğunu müdafiə etmişdir” (Lee, 2025). Tomas Hobbs və Cin Bodin Papa hakimiyyəti vasitəsilə dünyəvi dövlət hakimiyyətini qanuniləşdirməyin tərəfdarı idi. Dövlət hakimiyyətini qeyri-məhdud sayaraq dövlətin təşkilati modeli olaraq isə kontrast fikirlər irəli sürmüşlər. Belə ki, Tomas Hobbs totalitar rejimi qanuniləşdirərək insanların monarxın iradəsinə tabe olmaq məcburiyyətində qalaraq öz hüquqlarını suverenə keçirdiklərini bildirir. Cin Bodin isə demokratiyanın universal siyasi rejim olduğunu müdafiə edir. Vahid nəticəyə əsasən dövlət hakimiyyəti dövlət başçısı olan şahzadənin şəxsiyyətində cəmlənmişdir. Tomas Hobbsun fikrincə, dövləti xalqın iradəsindən asılı olmayan qüdrətli orqan təmsil edir. Cin Bodin isə dövlət hakimiyyətinin həyata keçirilməsində parlamentin əsas rolunu vurğulayır. Cin Bodin ideyasında xalqın inqilab etmək hüququ var. Tomas Hobbs isə cəmiyyətdə mövcud olan qarşıdurmalara nəzarət edə bilən totalitar dövlət konsepsiyasını inkişaf etdirdi. Bu iki mütəfəkkirlərin suverenlik anlayışına nəzəri baxışlarını təhlil etdikdə onların bir sıra oxşar cəhətləri aşkarlanır. Bu cəhətlərə aiddir:

1. Papa hakimiyyəti vasitəsilə dünyəvi dövlət hakimiyyətini qanuniləşdirmə;
2. Dövlət hakimiyyətini qeyri-məhdud hesab etmə;
3. Dövlət hakimiyyətinin dövlət başçısı olan şahzadənin şəxsiyyətində cəmlənməsi.

Onların suverenlik haqqında fikirlərinin hər biri oxşarlıq təşkil etmir. Bir neçə fərqli cəhətlər də yer almaqdadır. Belə kiTomas Hobbs dövləti idarəetmə forması olaraq totalitar rejimi Cin Bodin isə demokratiya rejiminin seçilməsi fikrini dəstəkləyirdi. Bu rejimlərin suveren fəaliyyətə verdiyi səlahiyyətə görə totalitar dövlətdə qarşıdurmalara nəzarətetmə funksiyası demokratik dövlətdə isə inqilab etmək hüququ ön plana çıxarılır. Bu kontekst hər iki mütəfəkkirdə iki fərqli istiqamət yaradır.

Müasir hüquq sistemində isə suverenlik insan hüquqları ilə ziddiyyət təşkil edir. Çünki hazırki müasir beynəlxalq hüquqi sistemlərdə suverenlik mütləq və məhdudsuz şəkildə sayılmır. Müasir dünyamızda əsasən müharibəli vəziyyətdə insan və vətəndaşların hüquq və azadlıqlarının qorunması zamanı qarşıya çıxan problemlər və çətinliklər bir çox hallarda dövlətlərin daxili siyasətinə müdaxilə kimi qəbul edildiyi üçün bu vəziyyətin gətirdiyi nəticə suverenlik prinsipinin pozulmasına gətirib çıxara bilər.

Torpaqlarımızın 20 faizinin işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının işğal altında qalan ərazilərdə tətbiqinə imkan vermədiyinə görə bu işğalçılıq siyasətinə son qoymaq və ərazi bütövlüyünün, suverenliyinin bərpa etmək Azərbaycan xalqının əsas qayəsinə çevrilmişdi. Bu qayənin tarixi uğurunun təcəssümü kimi “Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir” (Əliyev, 2024). Bu tarixi gün xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir. Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq 2025-ci il Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli” elan edilsin” (Əliyev, 2024) deyərək cari ilin hüquq-qanun çərçivəsində suverenliyimizin tam bərpa edilməsinin ölkə sə-

viyyəsində tarixi il kimi kollektiv yaddaşda saxlanılmasına yönələn tədbirlərin keçirilməsinə şərait yaratdı. Cari ilimiz təkcə "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə yadda qalmadı. Eləcə də biz beynəlxalq ictimaiyyəti silkələyən, dünya siyasətinə sülhün təməl prinsiplərinin atılması istiqamətində yeni bir qlobal uğura şahid olduq.

**Nəticə**

Qanunvericilik Suverenliyin Formalaşmasıdır. Suveren iradə, konstitusiya kimi qanunlar vasitəsilə ictimai münasibətləri tənzimləyən konkret qaydalara çevrilir. Suverenlik isə Qanunun Mənbəyidir. Dövlətin suveren iradəsi daxili və xarici siyasətdə hüquqi normaların yaranmasını şərtləndirir.

Qanunvericilik və suverenlik arasında dialektik münasibət dövlətin ali hakimiyyətinin hüquqi çərçivədə ifadə olunması və məhdudlaşdırılması üzərində qurulur. Suverenlik və qanunvericilik arasında münasibət statik deyil, dinamik və qarşılıqlı şərtlənən xarakter daşıyır. Suverenlik qanunun mənbəyi kimi çıxış edərək ona güc verir, qanunvericilik isə suverenliyin özbaşınalığa çevrilməməsini təmin edərək onu institusional formaya salır. Suverenliksiz qanun gücsüz, qanunvericiliksiz suverenlik isə nizamsızdır. Dövlət həm suveren gücə malik olmalı, həm də öz yaratdığı hüquq qaydalarına tabe olmalıdır.

**ƏDƏBİYYAT**

1. Arseni & Pozneacova, A. (2021) The Concept of Sovereignty in the Political Philosophy – From Antiquity to the Contemporary Epoch.

2. Əhməd, N. (2025) Müstəqil və Suveren Azərbaycan!

3. Əliyev, İ (2024) Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.

4. Quliyev A, (2017) Müqayisəli Qanunşünaslıq. 2-ci kitab.

5. Lee, S. (2025) Understanding Sovereignty in Philosophy of Law

**Summary**

**Habil Gurbanov**

**Dialectic relationship between legislation and sovereignty**

Restricting the framework of the legislative process leads to the suppression of the democratic foundations of society. This process cannot be prevented under any extreme circumstances and by any external force. Thos who obstruct the legislative process or attempt to prevent it are subject to coercive measures of the state. Interference in the course of the legislative process is punishable by law.

When looking at the current status of sovereignty, it is a right. Sovereignty consists of the right to freely and freely carry out the internal and external functions of the state universally recognized principles and norms of international law.

Each of the concepts of legislation and sovereignty is among the main categories that determine the existence and legitimacy of the state. While sovereignty expresses the supreme and indivisible nature of state power, legislation ensures the manifestation of this power in normative forms. The dialectical relationship between these two concepts determines their mutual influence and transformation processes.

The dialectical relationship between legislation and sovereignty is based on the expression and limitation of the supreme power of the state within the legal framework. The relationship between sovereignty and legislation is not static, but dynamic and mutually conditioned. Sovereignty acts as

a source of law and gives it power, while legislation ensures that sovereignty does not turn into arbitrariness and institutionalizes it.

***Keywords:*** *sovereignty, Republic of Azerbaijan, restoration, law, territory, power, independence.*

**Резюме**

**Габил Гурбанов**

**Диалектическая взаимосвязь между законодательством и суверенитетом**

Ограничение рамок законодательного процесса ведет к подавлению демократических основ общества. Этот процесс невозможно предотвратить ни при каких экстремальных обстоятельствах и ни с помощью какой-либо внешней силы. Те, кто препятствует законодательному процессу или пытается его предотвратить, подвергаются принудительным мерам государства.

Если рассматривать нынешний статус суверенитета, то это право. Суверенитет состоит в праве свободно и беспрепятственно осуществлять внутренние и внешние функции государства внутри и за пределами страны на основе конституции и законов государства, общепризнанных принципов и норм международного права. Люди всегда стремились определить государственную власть, ее владельца, чтобы продолжать свою жизненную деятельность. С этим также связано то, что суверенитет является характерной чертой власти.

Каждое из понятий – законодательство и суверенитет – входит в число основных категорий, определяющих существование и легитимность государства. В то время как суверенитет выражает высшую и неделимую природу государственной власти, законодательство обеспечивает проявление этой власти в нормативных формах. Диалектическая взаимосвязь между этими двумя понятиями определяет их взаимное влияние и процессы трансформации.

Диалектическая взаимосвязь между законодательством и суверенитетом основана на выражении и ограничении высшей власти государства в рамках правовой системы. Взаимосвязь между суверенитетом и законодательством не статична, а динамична и взаимообусловлена.

***Ключевые слова:*** *суверенитет, Азербайджанская Республика, восстановление, право, территория, власть, независимость.*